KÖNÜL BEYLƏQANLI

## Sən deyilsən

Sən indi "sən" deyilsən…
Gəl dedim, amma gəlmə…
Gəlsən də bilirəm ki, başqalaşıb gələssən,
Gəlsən də bilirəm ki, soyuqlaşıb,
buzlaşıb,
şaxtalaşıb gələssən.
Gəlsən də bilirəm ki, dar cığır olacaqsan,
dik yoxuş olacaqsan,
üşüdəcəksən məni,
qar, yağış olacaqsan,
ya da təsəlli üçün
lal baxış olacaqsan.

Sən mənim dünənimdin…
Daha dünən deyilsən.
Sən dünən mənim idin,
İndi mənim deyilsən.
Sən indi "sən" deyilsən…
Gəl dedim, amma gəlmə…

Gəlsən də bilirəm ki, "bu gün" olub
gələssən,
düyün olub gələssən.
Aça bilməyəcəyəm,
Çözə bilməyəcəyəm.

Oyun olub
gələssən
Yoxam daha oyunda.

Daha belə oyuna həvəsim də tükənib,
Sinədolu çəkməyə nəfəsim də tükənib.
Gəl dedim, gəlmə gülüm…
Mən sənə gəl demişdim
Sən də ki, "sən" deyilsən
Gəlmə çünki bilirəm
"sən" kimi gəlmiyəssən…